**“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın 30.06.2020-ci il tarixinə icra vəziyyəti barədə**

# ARAYIŞ

30.06.2020-ci il tarixinə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı” (Dövlət proqramı) çərçivəsində **3302** nəfərin təhsili ilə bağlı xərclər Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilmişdir. Bu tələbələrin sayı ümumilikdə **152** nəfər olmaqla, **146** nəfəri 2 təhsil dərəcəsi, **6** nəfəri isə 3 təhsil dərəcəsi üzrə təhsil almışdır. Dövlət Proqramında iştirak edən gənclərin əksər hissəsi Böyük Britaniya (**29,1%**), Türkiyə (**22,1%**), Almaniya (**12,4%**), Kanada (**7,2%**), Niderland **(5,2%)** və Rusiya (**3,8%**) universitetlərində təhsil almışdırlar.

**Diaqram 1. Dövlət proqramı çərçivəsində xaricdə təhsili maliyyələşdirilmiş tələbələrin ölkələr üzrə sayı**



Dövlət proqramı çərçivəsində xarici ölkələrdə təhsil alan gənclərin əksəriyyəti (**79,0%**) magistratura və bakalavr pillələrində təhsil alımışdırlar. Belə ki, proqram çərçivəsində xarici ölkələrdə təhsil alanların **1180** nəfəri bakalavr, **1430** nəfəri isə magistratura pilləsində təhsil almışdır.

**Diaqram 2. Dövlət proqramı çərçivəsində xaricdə təhsili maliyyələşdirilmiş tələbələrin təhsil dərəcələri üzrə bölgüsü**




Dövlət proqramı çərçivəsində bakalavr və magistratura pillələrinin hər biri üzrə gənclərin təhsili üçün prioritet sahələr müəyyənləşdirilmişdir.

Xarici ölkələrin universitetlərində ***Magistratura*** pilləsində təhsil alan tələbələrin əksər hissəsi iqtisadiyyat və idarəetmə (**722** nəfər), sənaye (**138** nəfər), hüquq ( **120** nəfər) informasiya və kommunikasiya texnologiyaları (**118** nəfər) sahələrində təhsil almışdırlar.

**Diaqram 3. Dövlət proqramı çərçivəsində xarici ölkələrin təhsil müəssisələrində magistratura pilləsində təhsil alanların prioritet sahələr üzrə bölgüsü**




***Bakalavr*** pilləsində təhsil alanların əksəriyyəti magistratura pilləsində olduğu kimi əsasən iqtisadiyyat və idarəetmə (**320** nəfər) sahəsində təhsil almışdır.

**Diaqram 4. Dövlət proqramı çərçivəsində xarici ölkələrin təhsil müəssisələrində bakalavr pilləsində təhsil alanların prioritet sahələr üzrə bölgüsü**




Bunlarla yanaşı, Dövlət proqramı çərçivəsində xaricdə təhsil alan tələbələrin digər qismi (**692** nəfər və ya **21%**) təhsilin digər pillələrində - aspirantura, ordinatura, rezidentura və doktorantura sahələrində təhsil almışdırlar. Bu pillələrdə təhsil alan tələbələrin əksəriyyəti (**587** nəfər) tibb sahəsində təhsil almışdır. Eyni zamanda, onlar arasında elm sahəsi (**27** nəfər), iqtisadiyyat və idarəetmə (**22** nəfər), hüquq (**17** nəfər), sənaye (**14** nəfər) və sair (**25** nəfər) sahələrdə təhsil alanlar vardır.

Bütün bunlarla yanaşı, Dövlət proqramı çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Fransanın Dövlət Orta və Ali Təhsilin Təşkili Mərkəzi (CNOUS), Almaniyanın Alman Akademik Mübadilə Xidməti (DAAD), ABŞ-ın Fulbright və Rusiyanın Avrasiya Tədqiqatlar İnstitutu ilə bağlanmış sazişlər əsasında Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili təşkil edilmişdir. Bu cür tərəfdaş proqramlar vasitəsilə ümumilikdə **244** nəfər, o cümlədən, Fransa (**49** nəfər), Almaniya (**175** nəfər), ABŞ (**19** nəfər) və Rusiyanın (**4** nəfər) universitetlərində təhsil almışdırlar.

***Dövlət proqramının maliyyələşdirilməsi*** məqsədilə 2008-2018-ci illər ərzində ARDNF tərəfindən ümumilikdə **212 681,4** min manat vəsait istifadə olunmuşdur. Bu vəsait Dövlət proqramı çərçivəsində xarici ölkələrdə təhsil alanların yaşayış (**3 506,1** min manat), təhsil haqqı (**3 361,9** min manat), yol (**266,9** min manat), sığorta (**99,9** min manat), viza və qeydiyyat (**0,9** min manat) xərclərinin ödənilməsinə yönəldilmişdir.

**Diaqram 5. Dövlət Proqramı çərçivəsində 2008-2018-ci illər ərzində ARDNF tərəfindən ayrılmış maliyyə vəsaitlərinin bölgüsü**




**Məzunlar**

30.06.2020-ci il tarixinə Dövlət Proqramı çərçivəsində xaricdə təhsili maliyyələşdirilmiş və məzun statusunu almış tələbələrin sayı 2765 nəfər təşkil edir. Məzunların əksər hissəsi – 903 nəfəri Böyük Britaniya, 622 nəfəri Türkiyə, 236 nəfəri Almaniya, 150 nəfəri Niderland K.,120 nəfəri Rusiya, 84 nəfəri ABŞ-da- təhsillərini uğurla bitirmişlər.

**Diaqram 6. Dövlət Proqramı çərçivəsində xaricdə təshilini başa vuran məzunların ölkələr üzrə sayı**


Məzunların sayı
Böyük Britaniya 903
Türkiyə 622
Almaniya 236
Kanada 151
Niderland K 150
Rusiya 120
Fransa 94
İsveçrə 86
ABŞ 84
Avstraliya 75
İtaliya 41
Koreya 31
İsveç 30
İspaniya 24
Avstriya 20
Litva 16
Çexiya 14
İrlandiya 12
Macarıstan 9
Sinqapur 8
Polşa 7
Malayziya 6
Yeni Zenlandiya 4
Norveç 4
Çin 4
Belçika 4
Yaponiya 3
Ukrayna 3
Finlandiya 2
Latviya 1
Estoniya 1